

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 11 (21.672)

*17 yanvar 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 16-da İsveçrə Konfederasiyasına işgüzar səfəri başlayıb.

Dövlətimizin başçısının yanvarın 16-da Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşü olub.

Görüşdə Suma Çakrabarti yenidən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti seçilməsində göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edib və qarşıdakı dövrdə Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında səmərəli fəaliyyətin həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib.

Prezident İlham Əliyev Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında çox yaxşı əlaqələrin olduğunu bildirərək bu əməkdaşlığı yüksək qiymətləndirib və müxtəlif layihələrin həyata keçirilməsi üzrə səmərəli əlaqələrin qurulduğunu deyib.

Azərbaycanda həyata keçirilən iqtisadi islahatlara toxunan dövlətimizin başçısı ölkəmizdə özəl sektorun inkişafına daim diqqət göstərildiyini vurğulayıb.

Söhbət zamanı son vaxtlar Azərbaycanda kənd təsərrüfatı, nəqliyyat, infrastruktur və digər sahələrdə layihələrin həyata keçirilməsi ilə bağlı əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğu, bu layihələrin əlaqələrin inkişafına yeni imkanlar açdığı qeyd edilib.



## Fövqəladə halların vaxtında qarşısının alınması üçün mühüm tədbirlər görülüb



***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində 2016-cı ildə görülmüş işlərin yekunları və 2017-ci ildə qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilib.***

İclasda məruzə edən fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev qeyd edib ki, ötən il Fövqəladə Hallar Nazirliyi üçün ən yaddaqalan illərdən biri olub. Hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş nazirliyə hesabat dövrü ərzində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyindən 69 adda müxtəlif növ əşya əmlakları, fərdi mühafizə vasitələri, kimyəvi reaktivlər, laboratoriya avadanlıqları, yeməkxana ləvazimatları verilib.

Şamı Abdullayev nazirliyin mərkəzi aparatının və struktur qurumlarının ixtisaslı kadrlarla komplektləşdirilməsinə, əməkdaşların peşəkarlığının artırılmasına diqqət çəkərək vurğulayıb ki, ötən dövr ərzində 2 zabit Rusiya Federasiyasının Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Akademiyasına təhsil almağa, 6 nəfər hərbi və xüsusi rütbəli əməkdaş isə müvafiq ixtisasartırma kurslarına göndərilib.

"Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən "Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"na uyğun olaraq, obyektlərin layihələndirilməsi mərhələsində 85 obyektin layihə sənədləri yoxlanılıb, 39 obyektin işçi layihə sənədləri ekspertizadan keçirilib, 34 obyektin tikinti sahəsindən götürülmüş qrunt nümunələrinin laboratoriyada analizi aparılıb", – deyən nazir bildirib ki, sənayedə və dağmədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində işlər davam etdirilərək 32 müəssisədə 206 ədəd təhlükə potensiallı qurğu və avadanlıq sertifikatlaşdırılıb, yeni istifadəyə verilən 27 lift, 2 eskalator, 174 avadanlıq və qurğu dövlət reyestrində qeydiyyata alınıb, 38 kran və 58 lift texniki müayinədən keçirilib.

Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumları tərəfindən 2215 obyektdə əsaslı, 2347 obyektdə nəzəri, 874 obyektdə isə məqsədli yoxlamalar aparılıb, qaz və elektrik cihazlarından düzgün istifadə edilməsi, həmçinin yanğınpartlayış və dəm qazından zəhərlənmələrin qarşısının alınması üçün fərdi yaşayış evlərinə və mənzillərə baxışlar keçirilərək quraşdırılmış 143 suqızdırıcının istismarı dayandırılıb.

Aparılan tədbirlər nəticəsində muxtar respublikada 2016-cı ildə yanğın hadisələrinin sayı ötən illə müqayisədə 25 faiz, dəymiş ziyan isə 45,9 faiz azalıb.

Vurğulanıb ki, 2016-cı ildə Naxçıvan şəhərində zabit-gizir ailələri üçün tikilmiş 48 mənzilli yaşayış binasının 2017-ci il yanvarın 8-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə açılışı olub. Bunu nazirliyə göstərilən böyük dövlət qayğısı kimi dəyərləndirən Şamı Abdullayev cari ildə nazirliyin və tabeli təşkilatların belə qayğıya əməli işləri ilə cavab verəcəklərinə əminliyini bildirib.

Məruzə ətrafında çıxışlar olub. Çıxışlarda işdə buraxılan nöqsanlara toxunulub. Qeyd edilib ki, muxtar respublikada fövqəladə halların baş verməsinin qarşısının vaxtında alınması nazirlik qarşısında duran ən başlıca vəzifədir. Bu vəzifənin yerinə yetirilməsində hər bir əməkdaş məsuliyyət hissi daşıyır. Ona görə də heç bir nöqsana yol verməmək üçün əməkdaşlar öz vəzifə borclarına məsuliyyət hissini daha da artırmalıdırlar.

## Ədliyyə Nazirliyində kollegiya iclası keçirilib

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində 2016-cı ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.***

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, nazirliyin əsas fəaliyyət istiqamətlərindən biri olan hüquqi maarifləndirmə və hüquqi təbliğat sahəsində həyata keçirilən tədbirlər davam etdirilib, muxtar respublikanın şəhər və rayonlarında bələdiyyə fəaliyyəti ilə bağlı 14, notariat və qeydiyyat fəaliyyəti ilə bağlı 11, icra xidməti ilə əlaqədar 4 tədbir keçirilib.



Qeyd olunub ki, "Hüquqi aktların Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq reyestrə hesabat dövrü ərzində 143 hüquqi akt daxil edilib. Daxil edilən hüquqi aktların 77-si normativ hüquqi akt, 66-sı qeyri normativ hüquqi aktdır.

Nazirlik üzrə müəyyən edilmiş 18 adda informativ və interaktiv elektron xidmət növünün aktiv olduğunu bildirən Suliddin Əliyev deyib ki, istifadəçilər elektron xidmət bölməsinə daxil olmaqla göstərilən xidmətin adı, bu xidmət üçün tələb olunan sənədlərin dəqiq siyahısı, sənədlərin elektron forması ilə tanış ola, zəruri informasiya əldə edə bilərlər.

Muxtar respublikada bələdiyyə institutunun inkişafına xüsusi qayğı ilə yanaşılır, onlara müasir iş şəraiti yaradılır. Nazirlik tərəfindən ötən il bələdiyyələrdə qanunvericiliyə əməl edilməsi məqsədilə zəruri metodik köməklik və maarifləndirmə tədbirləri həyata keçirilib. Ötən ilin yanvar ayında rayon (şəhər) icra hakimiyyətlərinin əməkdaşlarının və müvafiq bələdiyyələrin iştirakı ilə muxtar respublikanın rayonlarında və Naxçıvan şəhərində "Bələdiyyə torpaqlarının idarə olunmasının xüsusiyyətləri" mövzusunda seminar-müşavirələr təşkil olunub.

"Penitensiar sahədə cəza-icra siyasətinin qüsursuz yerinə yetirilməsi, məhkumların hüquqlarının təmin olunması, saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, onların peşə vərdişlərinə yiyələnməsi, məşğulluğunun təmin edilməsi məqsədilə 2016-cı il fevralın 24-də Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yeni istehsalat və yaradıcılıq binasının açılışı olub", – deyən nazir bildirib ki, iki mərtəbədən ibarət olan binada istehsalat və tədris otaqları, yeməkxana və nəzarətçi otağı yaradılıb. Burada istehsalat prosesi ilə yanaşı, kompüter istifadəçisi, nəqqaşlıq, misgərlik, daş və duz üzərində oyma, dərzi, rəssam, ayaqqabı təmirçisi və bərbər peşələri üzrə otaqlar təyinatına uyğun avadanlıqlarla təmin olunub, 8 kompüter dəsti quraşdırılıb, 29 məhkumun eyni vaxtda müxtəlif peşə fəaliyyəti ilə məşğul olması üçün şərait yaradılıb. Muxtar respublikada keçirilən sərgilərdə məhkumlar tərəfindən düzəldilən əl işlərinin sərgilənməsi və satışı həyata keçirilib.

Hesabat dövründə Məhkəmə Ekspertizası Mərkəzinin icraatına 172 ekspertiza işi daxil olub ki, bu da 2015-ci illə müqayisədə 27 iş çoxdur. İcra olunmuş ekspertizalar üzrə, ümumilikdə, 143 rəy, 20 ekspert arayışı tərtib edilib, 457 suala tam cavab verilib.

Sonra məruzə ətrafında çıxışlar olub. Çıxışlarda ayrı-ayrı şöbələrin ötənilki fəaliyyəti haqda məlumat verilib.

İclasda nazirliyin 2017-ci ilə dair iş planı və kollegiya qərarı təsdiq edilib.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev yekun vurub.

## Ötən il hərbi xidmətə çağırış kampaniyaları mütəşəkkil aparılıb

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində 2016-cı ilin yekunlarına və qarşıya qoyulmuş vəzifələrin icrasına həsr olunmuş müşavirə keçirilib.***

Müşavirəni xidmətin rəisi, general-mayor Səxavət Salmanov açaraq bildirib ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti əvvəlki illərdə olduğu kimi, 2016-cı ildə də muxtar respublika ərazisində qeydiyyatda duran və 16 yaşı tamam olan Azərbaycan Respublikası vətəndaşlarının yaşayış yeri üzrə ilkin hərbi qeydiyyata alınmasını, qeydiyyata götürülmüş vətəndaşların çağırışqabağı hazırlıq işlərinin təşkil edilməsini, onlarla sağlamlıq profilaktik tədbirlərin keçirilməsini, çağırış kampaniyalarının mütəşəkkil aparılmasını təmin edib. Qeyd olunub ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və qanunvericiliyə uyğun olaraq yaradılmış başqa birləşmələrin və xüsusi birləşmələrin sürücü ixtisası ilə komplektləşdirilməsi məqsədilə Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbinə 2016-cı il ərzində 293 nəfər çağırışçı cəlb olunub.



Naxçıvan Muxtar Respublikasında məktəblilər arasında hərbi-idman oyunlarının keçirilməsinin diqqət mərkəzində saxlanıldığını deyən xidmət rəisi bildirib ki, bu tədbirlər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Gənclər və İdman, Təhsil nazirliklərinin birgə planları əsasında təşkil edilib. Bundan əlavə, 2016-cı ilin oktyabr və dekabr aylarında ümumtəhsil məktəblərinin X-XI sinif şagirdlərinin planlı şəkildə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayına və Əlahiddə Ümumqoşun Ordusunun tabeliyindəki bir sıra hərbi hissələrə ekskursiyaları təşkil edilib.

Vurğulanıb ki, 2016-cı ildə ehtiyata buraxılan hərbi vəzifəlilərdən yenidən hərbi xidmət keçmək üçün müxtəlif hərbi hissələrə müddətdən artıq hərbi xidmət hərbi qulluqçusu kimi 180 nəfər namizəd seçilərək göndərilib.

2016-cı ildə 9 nəfər ehtiyatda olan zabit ehtiyatdan çağırılaraq 1 il 6 ay müddətinə və 11 nəfər ehtiyatda olan gizir ehtiyatdan çağırılaraq 5 il müddətinə həqiqi hərbi xidmət keçmək üçün göndərilib, onlardan 4 nəfər zabit və 3 nəfər gizir hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində xidmət edirlər.

Səxavət Salmanov işdə buraxılmış nöqsanlara da toxunub, onların qısa müddətdə aradan qaldırılmasının vacibliyini bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik Elxan Əliyevin, Ordubad Rayon Şöbəsinin rəisi, mayor Vüqar Rəhimlinin, Kəngərli Rayon Şöbəsinin rəisi, mayor Həsən Məmmədovun və Şahbuz Rayon Şöbəsinin rəisi, mayor Anar Aqilovun çıxışları olub.

**Xəbərlər şöbəsi**

# 2016-cı ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



“2016-cı il muxtar respublikada müasir texnologiyaların tətbiq edilməsi ilə telekommunikasiya və poçt xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması baxımından xeyli zəngin olub. Belə ki, 2015-ci ilin iyun ayından etibarən qurulmasına başlanan 4-cü nəsil mobil rabitə sistemi üzrə layihənin icrası davam etdirilib, bu müddətdə muxtar respublikanın bütün yaşayış məntəqələrini əhatə edən 98 baza stansiyası, fiber-optik əsaslı arabağlantı şəbəkəsi və mərkəzi idarəetmə sistemi qurulub, “Naxtel”in qeydiyyat və hesabat sistemi üçün əsas və ehtiyat server avadanlıqları, proqram təminatı hazırlanıb, zəruri olan müştəri xidmətləri mərkəzləri, məlumat sorğu və digər xidmətlər yaradılıb, bu rabitə növünün mobil data imkanlarından istifadə olunaraq avtomobillər üçün GPS izləmə sistemi qurulub. İstifadəçilərin bütün məlumatları və xidmətləri əldə edə biləcəyi 3 dildə *naxtel.az* domen adlı internet saytı hazırlanıb, ötən il oktyabr ayının 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin və bir çox xarici qonaqların iştirakı ilə Naxtel 4G mobil rabitə şəbəkəsi istifadəyə verilib”. Bu fikirlər Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyində keçirilən kollegiya iclasında səsləndirilib.

2016-cı ildə görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edən rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov bildirib ki, nazirlik və “Huawei” şirkəti arasında bağlanan iki müqavilə üzrə 23 yeni nəsil avtomat telefon stansiyası alınıb muxtar respublikaya gətirilib və təyin olunan məntəqələrdə qurulub.

Ümumilikdə, il ərzində yeni istifadəyə verilən avtomat telefon stansiyalarının sayı 28 ədəd olub. Bunlardan 6-sı əvvəllər “Karel” tipli olub və ötən il yeni nəsil avtomat telefon stansiyası ilə əvəz edilib. Hazırda muxtar respublika üzrə telefon istifadəçilərinin 70 faizinə yeni nəsil telefon stansiyaları vasitəsilə xidmət edilir.

Vurğulanıb ki, il ərzində məftilli və mobil olmaqla, 10648 yeni telefon nömrəsi istifadəyə verilib. Bura 2017-ci ilin yanvar ayının 1-dək vətəndaşlar tərəfindən əldə edilmiş 7632 ədəd Naxtel 4G nömrələri də daxildir.

Diqqətə çatdırılıb ki, “Evədək optika” layihəsi üzrə işlər davam etdirilib, fərdi mənzillərlə yanaşı, 10 çoxmənzilli binada yaşayan sakinlər üçün GPON adlanan optik şəbəkə xidmətləri infrastrukturu yaradılıb.

İl ərzində muxtar respublika İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən şəhər və rayon avtomat telefon stansiyalarında 38 ədəd DSLAM avadanlığı qurulmaqla 5181 abunəçiyə genişzolaqlı internet xidməti təqdim edilib.

Muxtar respublikanın təhsil müəssisələrinin informasiya texnologiyaları ilə təmin edilməsi ilə bağlı verilən tapşırığa uyğun olaraq, 19 tam orta məktəb, Naxçıvan Texniki Kolleci və Şərur şəhərindəki Fizika-Riyaziyyat Təmayüllü Liseyi kompüter avadanlıqları, optik arabağlantı və sürətli internetlə təmin olunub.

“Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin kompüter şəbəkəsinin Mərkəzi Bankın Hökumət Ödəniş Portalına qoşulması prosesi başa çatdırılıb.

Bildirilib ki, hesabat dövründə Naxçıvan Muxtar Respublikasında Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin mütəxəssisləri tərəfindən hazırlanaraq istismara verilib, 81 təşkilat bu sistemə qoşulub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamının icrasına uyğun olaraq nazirliyin dəstəyi ilə Çin Xalq Respublikasının “Huawei” şirkəti tərəfindən “Naxçıvan” Universitetində Azərbaycanda ilk dəfə “Gələcəyin İKT sahəsindəki toxumları” adlı proqram-layihə həyata keçirilib, layihə çərçivəsində Naxçıvandan olan 6 tələbə Çin Xalq Respublikasının Şenjen şəhərindəki “Huawei” şirkətinin Yay Təlim Mərkəzində istehsalat təcrübəsi keçib.

Vurğulanıb ki, “Türk Telekom”la bağlanmış müqavilələr əsasında Türkiyə istiqamətindən ikinci fiber-optik kabel xətti çəkilərək alternativ optik kabel magistralına qoşulması təmin edilib, əlavə olaraq “Türk Telekom”dan 4Giqabit/s sürətli sinxron internet trafiki alınaraq muxtar respublikaya daxil olan internet trafikinin həcmi saniyədə 8Gb çatdırılıb. Hazırda muxtar respublikanın yaşayış məntəqələrinin 98 faizində genişzolaqlı, 99 faizində simsiz internet xidmətləri göstərilir.

Bildirilib ki, 2016-cı ildə nöqsanlara da yol verilib. Belə ki, bəzi müəssisələrdə nəzarət mexanizminin düzgün qurulmaması işçilər arasında məsuliyyətsiz hərəkətlərə yol verilməsinə zəmin yaradıb. Məsul şəxslər rəhbərlik etdikləri sahələrdə nizam-intizamın möhkəmləndirilməsinə ciddi yanaşmalı, görülən işlərin keyfiyyətlə və normativə uyğun icra olunmasına diqqəti artırmalıdırlar.

Sonra məruzə ətrafında çıxışlar olub. Çıxışlarda qeyd edilib ki, digər sahələr kimi, muxtar respublikanın rabitə infrastrukturu da hərtərəfli dövlət qayğısı əhatəsindədir. Bu qayğının ifadəsidir ki, Naxçıvan Muxtar Respublikasında informasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq olunur, əhalinin bu texnologiyalardan səmərəli istifadəsinə şərait yaradılır. Rabitə və Yeni Texnologiyalar Nazirliyi, nazirliyin tabeli təşkilatları 2016-cı ildə buraxılan nöqsanları qısa müddətdə aradan qaldırmağa səy göstərəcək, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində bütün qüvvələrini səfərbər edəcəkdir.

* * *

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Müslüm Cabbarzadə açaraq məruzə ilə çıxış edib.***



Bildirilib ki, son illərdə ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda mülkiyyət münasibətlərinin yeni iqtisadi prinsiplərə uyğun tənzimlənməsi məqsədilə qanunvericilik bazası təkmilləşdirilib, maddi-texniki baza gücləndirilib, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı, daşınmaz əmlakın kadastrı, texniki inventarlaşdırılması və qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi sahəsində müvafiq addımlar atılıb. Göstərilən dövlət qayğısının nəticəsi olaraq Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin inzibati binası əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Maddi-texniki bazanın gücləndirilməsi məqsədilə 2 dəst server, 36 kompüter, 9 müxtəlifölçülü printer, 1 dəst GPS, 3 dəst taxeometr, 4 ədəd lazerli məsafəölçən və 3 yeni avtomobil alınıb.

Qeyd olunub ki, 2016-cı il ərzində muxtar respublikanın Babək, Şərur, Şahbuz, Kəngərli və Culfa rayonlarında yerli icra orqanlarının nümayəndələri, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə görüşlər keçirilib, maarifləndirmə işləri aparılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirələrdə verilmiş tapşırıqların icrası məqsədilə görülən işlər ötən il ərzində davam etdirilib. Komitə və onun yerli idarələri tərəfindən 114 əmlak real bazar dəyərinə uyğun olaraq qiymətləndirilib, həmin əmlaklara dair hesabat və rəylər hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. Sahibkarlara göstərilən bütün növ xidmətlərə görə müəyyən edilmiş rüsum və xidmət haqlarının yalnız banklar vasitəsilə ödənilməsi təmin edilib. İl ərzində sahibkarlara məxsus 353 əmlak üzrə məhdudiyyət və yüklülüyün qeydiyyatı aparılıb. Kənd təsərrüfatına yararlı torpaqların kateqoriyalar üzrə səmərəli istifadəsi istiqamətində tapşırıqların icrası ilə əlaqədar Sədərək, Şərur, Kəngərli, Culfa, Ordubad, Babək rayonlarının və Naxçıvan şəhərinin ərazisində olan eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqlar müəyyən edilib, xəritələşdirilib, həmin ərazilərdə meliorasiya tədbirlərinin həyata keçirilməsi məqsədilə hazırlanmış materiallar aidiyyəti orqanlara göndərilib.

Vurğulanıb ki, ötən il ərzində vətəndaşların mülkiyyət hüquqlarının dövlət reyestrində qeydə alınması istiqamətində işlər davam etdirilib, 5845 daşınmaz əmlak obyekti qeydiyyata alınıb, 353 girov qeydi aparılıb, əmlakın yüklülüyünə dair 3655 arayış verilib. Hüquqların dövlət qeydiyyatına alınması üçün komitənin fəaliyyət istiqamətləri üzrə göstərdiyi elektron xidmətlərdən 357 müraciət daxil olub və icra edilib.

Ötən il vətəndaşlara səyyari xidmətin göstərilməsinin davam etdirildiyini deyən komitə sədri bildirib ki, səyyari qaydada göstərilən xidmətlərin sayı artırılaraq 5-ə çatdırılıb. Hesabat ili ərzində muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 850 daşınmaz əmlak obyektinə ünvan verilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

“Ötən il su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 232,4 mln. m3 həcmində suvarma suyu verilib və bunun müqabilində təkrar suvarma nəzərə alınmaqla, 193 min 317 hektar ərazi suvarılıb. Torpaq sahələrinin su təminatının yaxşılaşdırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi üçün 52,7 kilometr yeni suvarma boru xətti çəkilib, 26,8 kilometr suvarma boru xətti əsaslı təmir olunub. Şərur rayonunun Ələkli kəndində mənbəyini Arpaçay sol sahil kanalından götürən, uzunluğu 3000 metr olan yeni suvarma boru xəttinin tikintisi başa çatdırılıb, Xanlıqlar kəndində 150 hektar, Vərməziyarda 222 hektar, Ələklidə 217 hektar olmaqla, 589 hektar ərazinin suvarma suyu ilə təmin olunması yaxşılaşdırılıb. Babək rayonunun Kültəpə kəndinin torpaq sahələrinin suvarma suyu ilə təmin olunmasını yaxşılaşdırmaq üçün mənbəyini Vayxır sol sahil kanalından götürən, ümumi uzunluğu 3060 metr olan yeni suvarma boru xəttinin tikintisi nəticəsində 50 hektar ərazi əkin dövriyyəsinə daxil edilib, 565 hektar torpaq sahəsi suvarma suyu ilə tam təmin olunub. Sahələrə suvarma suyunun paylanması üçün 1272 metr



uzunluğunda yeni beton kanal tikilib, 7922 metr məsafədə təsərrüfatlararası arx çəkilib, kanal üzərində 16 ədəd suburaxıcı qapı quraşdırılıb”. Bu sözləri Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində keçirilən kollegiya iclasında komitənin sədri Əsgər Əsgərov deyib.

Vurğulanıb ki, bu qəbildən olan tədbirlər bütün bölgələrdə həyata keçirilib. Muxtar respublikada içməli su sahəsində görülən işlərin nəticəsində 369 ailə fasiləsiz içməli su ilə təmin edilib, 20500 nəfər sakinə xidmət edən içməli su xətlərində təmir-bərpa işləri yerinə yetirilib.

Komitə sədri qeyd edib ki, suvarma və içməli su təminatında qədim hidrotexniki qurğu olan kəhrizlərdən geniş istifadə edilir, onların təmir-bərpası daim diqqət mərkəzində saxlanılır. Bu gün şəhər və rayonlarda 332 kəhrizdən istifadə olunur. Kəhrizlər İdarəsi tərəfindən ötən il ərzində 15 kəhrizdə təmir-bərpa işləri başa çatdırılıb, 5 kəhrizdə bu işlər davam etdirilir. Ötən il komitənin balansında olan, muxtar respublikada ikinci suvarma mənbəyi kimi istifadə edilən 103 nasos stansiyasının 101-i, 891 ədəd subartezian quyusunun 824-ü istismar olunub. İl ərzində nasos stansiyalarında, onların təzyiqli boru xətlərində təmir işləri aparılıb, 17 kilometr məsafəni əhatə edən təzyiqli boru xətti təmir edilib, rayonlarda 761 ədəd subartezian quyusu əsaslı təmir olunub. Tabe təşkilatlar tərəfindən 760 metr yeni təzyiqli boru xətti çəkilib, 89 ədəd subartezian quyusuna yeni nasos quraşdırılıb, 3 ədəd subartezian quyusu bərpa edilib. Araz çayı ətrafındakı torpaqların yuyulmasının qarşısını almaq məqsədilə 3048 metr məsafədə sahilbərkitmə işi görülüb.

Görülmüş işlərlə yanaşı, işdə buraxılan nöqsanlardan və qarşıda duran vəzifələrdən də danışan Əsgər Əsgərov cari ildə kollektivin bu vəzifələrin öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə edib.

Sonra çıxışlar olub.

* * *



***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində də ötən ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirilib.***

Tədbiri agentliyin baş direktoru Yasin Səfərov açaraq bildirib ki, 2016-cı il ərzində muxtar respublikanın elektrik şəbəkələrinə 486 milyon 393 min 600 kilovat-saat elektrik enerjisi daxil olub. Bunun 48 milyon 477 min kilovat-saatı İran İslam Respublikasından alınıb, 79 milyon 614 min kilovat-saatı Araz Su Elektrik Stansiyasında, 10 milyon 484 min 500 kilovat-saatı Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyasında, 52 milyon 265 min 100 kilovat-saatı Biləv Su Elektrik Stansiyasında, 60 milyon 250 min kilovat-saatı “Arpaçay-1” Su Elektrik Stansiyasında, 1 milyon 707 min kilovat-saatı “Arpaçay-2” Su Elektrik Stansiyasında, 304 000 kilovat-saatı Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında, 203 milyon 635 min kilovat-saatı Naxçıvan Modul Elektrik Stansiyasında, 29 milyon 657 min kilovat-saatı Naxçıvan Günəş Elektrik Stansiyasında istehsal edilərək elektrik şəbəkələrinə ötürülüb. İl ərzində İran İslam Respublikasına 49 milyon 520 min kilovat-saat elektrik enerjisi verilib. Hazırda İran İslam Respublikası ilə elektrik enerjisi mübadiləsi aparılır.

Qeyd olunub ki, muxtar respublikada yeni elektrik stansiyalarının tikintisi davam etdirilir. Ordubad rayonu ərazisində Araz çayı üzərində derivasiyatipli 36 meqavat güclü Ordubad Su Elektrik Stansiyasında tikinti işləri həyata keçirilir. Culfa rayonu ərazisində isə gələcəkdə külək elektrik stansiyası tikilməsinin texniki-iqtisadi əsaslandırılması üçün ölçü qurğuları quraşdırılıb, 3 aydan artıq müddətdir ki, ölçmə işləri aparılır.

Diqqətə çatdırılıb ki, 2016-cı il ərzində muxtar respublikanın şəhər və kəndlərində 1 ədəd 35/6 kilovoltluq, 35 ədəd 10/0,4 kilovoltluq yeni transformator yarımstansiyası quraşdırılıb, 56,5 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətti çəkilib, 4 kilometr uzunluqda hava elektrik verilişi xətti kabel xətti ilə əvəz edilib. İl ərzində Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 110 ədəd 10/0,4 kilovoltluq transformator təmir edilərək şəbəkələrə qaytarılıb.

Vurğulanıb ki, Naxçıvan şəhərində əhali abonentlərinin ev və mənzillərində ön ödənişli smartkarttipli sayğacların qoyulması işləri davam etdirilir. Ötən il ərzində 6300 ədəd belə sayğac quraşdırılıb. Eyni zamanda 2016-cı il ərzində 6,9 faiz (33561,1 min kilovat-saat) texniki itki nəzərə alınmaqla işlədicilərə dəyəri 26 468,44 min manat təşkil edən 403 312 min kilovat-saat elektrik enerjisi verilib. Elektrik enerjisi satışından 26 468,6 min manat vəsait toplanıb, enerjinin dəyərinin ödənilməsi 100,0 faiz olub.

Sonra məruzə ətrafında çıxışlar olub, işdə buraxılan nöqsanlardan və qarşıda duran vəzifələrdən danışılıb.

**Xəbərlər şöbəsi**

*Muxtar respublikada gənclərin yaradıcılıq axtarışlarının stimullaşdırılmasına, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə, onların intellektual inkişafına və asudə vaxtlarının səmərəli təşkilinə xüsusi diqqət yetirilir, istedadlı gənclərin üzə çıxarılması məqsədilə müxtəlif yaradıcılıq müsabiqələri keçirilir. 2016-cı ildə də muxtar respublikada bu məsələ diqqətdə saxlanılmış, keçirilən yaradıcılıq müsabiqələrində gənclər fəal iştirak etmişdir.*

## 2016-cı ildə muxtar respublikada keçirilən yaradıcılıq müsabiqələrində 7 mindən çox gənc iştirak etmişdir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun təşkilatçılığı ilə ötən il iyun ayının 16-dan noyabr ayının 30-dək “Naxçıvan: dünən və bu gün” mövzusunda yaradıcılıq müsabiqəsi keçirilmişdir. Publisistika və teleradio materialları, rəsm əsərləri, ədəbi nümunələr, musiqi və elmi-tədqiqat əsərləri kateqoriyaları üzrə keçirilən müsabiqəyə 81 iştirakçı tərəfindən 97 yaradıcılıq nümunəsi təqdim olunmuşdur.

Musiqi istedadı olan gənclərin aşkar edilməsi və onların yaradıcılıq potensialının üzə çıxarılması zəngin musiqi mədəniyyətimizin yaşadılması baxımından mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin birgə təşkilatçılığı ilə ötən il xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsinin keçirilməsi də bu məqsədə xidmət etmişdir. Bununla yanaşı, Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə bağlı “Gənclik” Mərkəzində uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri arasında “İfaçılıq” müsabiqəsi də keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri ilə zənginliyi turizmin inkişafı üçün əlverişli şərait yaradır. Ona görə də Naxçıvanın turizm potensialının tanıdılması qarşıda duran əsas vəzifələrdəndir. Bu işdə aid təşkilatlarla yanaşı, gənclərin də fəallıq göstərməsi məmnunluq doğurur. 2016-cı ilin yanvar-may aylarında Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin təşkilatçılığı ilə tələbələr arasında “Naxçıvanı tanıdaq” telemüsabiqəsi keçirilib. Naxçıvanın turizm üzrə tanıtım çarxlarının hazırlanmasında 30-a yaxın tələbə iştirak edib. Tələbələr tərəfindən 6 videoçarx hazırlanaraq Naxçıvan televiziyasına təqdim olunub. Qaliblərə hədiyyələr və pul mükafatları verilib, hazırlanan videomateriallar internet üzərindən paylaşılıb. Bununla yanaşı, ötən ilin oktyabr ayında “Mən Naxçıvanı tanıyıram” bilik olimpiadası, iyun ayında isə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “Naxçıvanın turizm imkanları” mövzusunda fotomüsabiqə keçirilmişdir.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikasının Təhsil, Gənclər və İdman, Mədəniyyət və Turizm nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə bir sıra rəsm müsabiqələri keçirmişdir. Belə ki, 2016-cı il yanvarın 19-da gənclər arasında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “Tariximizin mübarizlik səhifəsi”, fevralın 26-da Xocalı soyqırımı ilə əlaqədar ümumtəhsil məktəblərinin və məktəbdənkənar tərbiyə müəssisələrinin şagirdləri arasında “Qan yaddaşımız Xocalı”, aprelin 6-da Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində muxtar respublikanın uşaq incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri arasında, sentyabrın 11-də uşaqlar arasında “İrs” rəsm müsabiqələri keçirilmiş, iyunun 3-də “Naxçıvan” Universitetində “Ətraf mühit və biz” mövzusunda gənclərin rəsm əsərlərindən ibarət sərgi-müsabiqə təşkil edilmişdir.

Vətənə məhəbbət və vətəndaşlıq hisslərinin yüksəldilməsi, eləcə də şagirdlərin bədii qiraət qabiliyyətinin üzə çıxarılması məqsədilə 2016-cı ildə Naxçıvan Muxtar Respublikasının Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirlikləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yazıçılar Birliyi və Heydər Əliyev adına Hərbi Lisey tərəfindən şeir müsabiqələri keçirilmişdir. Belə ki, aprelin 18-30-da “Gənclik” Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin muxtar respublika, yanvarın 18-də və fevralın 23-də “Şəhidlər unudulmaz, hər zaman anılar” mövzusunda, fevralın 21-də Beynəlxalq Ana Dili Günü münasibəti ilə “Dilim zəngin xəzinəmdir” mövzusunda V muxtar respublika, 26 fevral – Xocalı soyqırımı ilə əlaqədar “Silahlı münaqişələr zamanı uşaqlara qarşı zorakılıq” mövzusunda VI muxtar respublika, martın 30-da isə “31 mart Azərbaycanlıların Soyqırımı Günü” ilə əlaqədar şeir müsabiqələri keçirilmişdir.

Muxtar respublikada məhdud fiziki imkanlı uşaqların istedadlarının aşkara çıxarılması, yaradıcılıq potensiallarının inkişafı, habelə cəmiyyətə inteqrasiyaları məqsədilə ardıcıl tədbirlər görülür. Ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən aidiyyəti təşkilatlarla birgə müxtəlif yaradıcılıq müsabiqələri təşkil edilmişdir. Belə ki, məhdud fiziki imkanlı uşaqların iştirakı ilə aprelin 2-də “Müstəqilliyimiz əbədidir” mövzusunda şeir müsabiqəsi, mayın 26-da asfalt üzərində rəsm müsabiqəsi, iyunun 14-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda rəsm və əl işlərindən ibarət sərgi-müsabiqə, iyulun 29-da “Yurdumuzu tanıyaq” adlı bilik müsabiqəsi, avqustun 31-də “Naxçıvan tarixi abidələr diyarıdır” mövzusunda rəsm müsabiqəsi, görmə məhdudiyyəti olan şəxslər arasında isə noyabrın 10-da brayl yazı müsabiqəsi, noyabrın 11-də isə şeir müsabiqəsi keçirilmiş, qaliblər diplom və hədiyyələrlə mükafatlandırılmışlar.

Naxçıvanın tarixini, ədəbiyyatını, mədəniyyətini, coğrafiyasını və bugünkü inkişafını məktəblilərin gözü ilə təqdim etmək, yüksək bilik və bacarığa malik gəncləri üzə çıxarmaq məqsədilə aid təşkilatlar tərəfindən müxtəlif mövzularda inşa yazı müsabiqələri də keçirilmişdir. Belə ki, fevralın 24-də Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında “Torpaq, uğrunda ölən varsa Vətəndir” adlı, fevralın 22-də ümumtəhsil məktəblərinin şagirdləri arasında Xocalı soyqırımına həsr olunmuş, aprelin 6-dan mayın 6-dək “Naxçıvan müstəqillik illərində” adlı, martın 18-də “31 mart Azərbaycanlıların Soyqırımı Günü” ilə əlaqədar inşa yazı müsabiqələri keçirilmişdir. Bununla yanaşı, mayın 15-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun təşkilatçılığı ilə “İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik” mövzusunda III muxtar respublika rəsm və inşa yazı müsabiqəsi, noyabrın 15-də Gənclər Mərkəzində “Ailə dəyərlərimiz film və fotolarda” mövzusunda yaradıcılıq müsabiqəsi, 5-6 may tarixlərində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən aid təşkilatlarla birgə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Yaradıcı əllər” festivalı çərçivəsində “Əl işləri”, “Milli yeməklər” və “Şirniyyatlar” müsabiqələri keçirilmişdir.

*Ümumilikdə, muxtar respublikada 2016-cı ildə müxtəlif mövzularda 50-dən çox yaradıcılıq müsabiqəsi keçirilmiş, müsabiqələrdə 7 mindən çox gənc iştirak etmişdir. Bütün müsabiqələrdə qaliblər diplom və qiymətli hədiyyələrlə təltif olunmuşdur. 2017-ci ildə də gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların biliklərinin artırılması, layiqli vətəndaş kimi yetişmələri, istedadlı gənclərin üzə çıxarılması məqsədilə yaradıcılıq müsabiqələrinin keçirilməsi davam etdiriləcəkdir.*

**“Şərq qapısı”**

## Naxçıvan Dövlət Televiziyasının internet saytı reytinq göstəricisinə görə ölkə telekanallarının saytları arasında birinci yerdədir

***2016-cı il oktyabrın 17-də – Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü ərəfəsində Naxçıvan Dövlət Televiziyası internet üzərindən HD formatda canlı yayıma başlamış, bununla əlaqədar yaradılan www.naxcivantv.az internet saytının təqdimatı olmuşdur. Televiziyanın yeni saytının fəaliyyətə başlaması Naxçıvanın informasiya blokadasının yarılması və qədim diyarın tanıdılması istiqamətində atılan növbəti addım kimi mühüm əhəmiyyətə malikdir.***



Naxçıvan Dövlət Televiziyasının internet saytının “Rəsmi xəbərlər”, “Anonslar”, “Televernisaj və videoçarxlar”, “Aktual”, “İctimai”, “Mətbuat səhifələrində”, “Gənclər və idman”, “Ədəbiyyat”, “Turizm”, “Reklamlar və elanlar” bölmələrində müntəzəm olaraq izləyicilərə yeni telematerialları çatdırılır. Rəsmi xəbərlər isə Azərbaycan, ingilis və rus dillərində təqdim olunur. Saytın gün ərzində müntəzəm yenilənən “Xəbərlər” bölməsində isə muxtar respublikada baş verən yeniliklər, şəhər və kəndlərin inkişafı, təhsil, səhiyyə, mədəniyyət, elm, informasiya texnologiyaları və digər sahələrdən hazırlanan operativ xəbərlər yerləşdirilir. Hazırda saytda “Naxçıvanşünaslıq” və “İslam mədəniyyətinin paytaxtı Naxçıvan – 2018” bölmələrinin yaradılması istiqamətində işlər aparılır.

İnternet saytı yeni yaradılsa da, hər gün orta hesabla 10-15 min müraciət olur. Belə ki, istifadəyə veriləndən ötən 3 ay ərzində ***naxcivantv.az*** saytına dünyanın 81 ölkəsindən, 800 minə yaxın müraciət olub. Azərbaycandan 597 min, Rusiyadan 39 min, Türkiyədən 33 min, Ukraynadan 11 min, İrandan 9 min, Gürcüstandan 7 min, Amerika Birləşmiş Ştatlarından 5 min, Almaniyadan 3 min, Ermənistandan 1000 və digər ölkələrdən 89 min müraciət qeydə alınıb.

Beynəlxalq reytinq saytı olan www.alexa.com-un 2017-ci il yanvar ayının 16-na təqdim etdiyi təhlilin nəticələrinə görə, Azərbaycan saytları üzrə reytinq sıralamasında Naxçıvan televiziyasının saytı 3 ay ərzində 10 mindən çox saytı ötərək Azərbaycan telekanallarının rəsmi saytlarının reytinq sıralamasında birinci yerə yüksəlib. Bu sıralamada Naxçıvan televiziyasının rəsmi saytı ölkə üzrə 1087-ci yerdə, Azərbaycan televiziyasının rəsmi saytı ölkə üzrə 1296-cı yerdə, “İctimai” televiziyanın saytı ölkə üzrə 2233-cü yerdə, “Lider” televiziyasının saytı ölkə üzrə 2313-cü yerdə, “ARB” televiziyasının saytı ölkə üzrə 3062-ci yerdə, “CBC” televiziyasının saytı ölkə üzrə 3277-ci yerdə, “Space” televiziyasının saytı isə ölkə üzrə 4247-ci yerdə qərarlaşıb. Beynəlxalq reytinq saytının təhlilindən görünür ki, ***naxcivantv.az*** saytı həm də Naxçıvan Muxtar Respublikasının ən çox izlənilən internet resursudur.

Hazırda Türkiyə Respublikasının canlitviz.com, hdcanlitvizler.com və hdtvler1.net saytlarında Naxçıvan televiziyasının canlı yayım linki yerləşdirilib. Həmin linkdən ***naxcivantv.az*** saytına keçid etməklə izləyicilər Naxçıvan televiziyasının canlı yayım səhifəsinə yönləndirilərək televiziyanı birbaşa izləyə bilirlər.

Bir sözlə, bu gün geniş izləyici kütləsi toplayan ***naxcivantv.az*** saytı qədim Naxçıvanın mühüm informasiya mənbəyi olmaqla yanaşı, həm də müstəqil ölkəmizin əsas informasiya portallarından birinə çevrilmişdir. Muxtar respublikanın qədim tarixi, zəngin mədəniyyəti, müasir inkişafı və turizm potensialı Naxçıvan Dövlət Televiziyası tərəfindən internet üzərindən bütün dünyaya yayılır, izləyicilərə dəqiq və operativ məlumatlar çatdırılır. Bütün bunların nəticəsidir ki, artıq digər informasiya saytları Naxçıvan haqqında informasiya yayarkən ***naxcivantv.az*** saytına da istinad edirlər.

Naxçıvan Dövlət Televiziyasının kollektivi bundan sonra da internet saytının imkanlarından səmərəli istifadə edərək Naxçıvanda baş verən yenilikləri, əldə olunan inkişafı geniş tamaşaçı kütləsinə çatdıracaq və təbliğ edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Televiziya və Radio Verilişləri Komitəsi**

## 2016-cı ildə muxtar respublikada 2818 yeni iş yeri açılmışdır

***Muxtar respublikada işaxtaran və işsiz vətəndaşların münasib işlə təmin olunması diqqətdə saxlanılır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq ötən il məşğulluq tədbirləri davam etdirilmiş, Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunmuşdur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2016-cı ildə muxtar respublikada 2818 yeni iş yeri açılmışdır.



“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq ən fəal işəgötürən sahibkarlar da müəyyənləşdirilir. 2016-cı ildə muxtar respublikada daha çox iş yerləri açılan 6 istehsal və xidmət sahəsi olmuşdur. Belə ki, “Naxtel” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən dördüncü nəsil mobil rabitə şəbəkəsinin istifadəyə verilməsi nəticəsində 65, “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən bal, pendir, yabanı tərəvəz məhsullarının qablaşdırılması və makaron istehsalı sahəsində 50, “Fərda” unlu-qənnadı məmulatlarının istehsalı və xidmət sahəsində 20, Naxçıvan şəhərində avtomobil şinlərinin üzlənməsi sahəsində 8, Kəngərli rayonundakı “Şahanə” mebel istehsalı sahəsində 6 və Şərur rayonunun Siyaqut kəndindəki yanacaqdoldurma məntəqəsində 6 yeni iş yeri açılmış, müvafiq sahələr üzrə vətəndaşlar işə qəbul olunmuşdur.

2017-ci ildə də muxtar respublikada əhalinin işlə təmin olunması sahəsində həyata keçirilən tədbirlər davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

## Növbəti humanitar aksiyalar başa çatıb

***Bakı şəhərində fəaliyyət göstərən Akademik Mirəsədulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyətinin yanvar ayının 13-15 tarixlərində Şərur rayonunda keçirdiyi növbəti humanitar aksiya başa çatıb.***

Şərur Rayon Mərkəzi Xəstəxanasında təşkil olunan aksiyada xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə 22 yüksəkixtisaslı həkim və orta tibb işçisi iştirak edib. Bütövlükdə 2 min 568 nəfər müayinə olunub. Onlardan 73 nəfərin üzərində cərrahi əməliyyat aparılıb. Aztəminatlı ailələrdən cərrahi müdaxiləyə ehtiyacı olan xəstələr üzərində ümumi cərrahi, proktoloji, uroloji, burun-qulaq-boğaz və digər əməliyyatlar həyata keçirilib. Aksiya zamanı pasiyentlər həmçinin hematoloji, uroloji, nefroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə də əhatə olunublar.

385 USM, 312 laborator müayinəsi aparılıb. Müayinə olunmaq üçün xəstəxanaya müraciət edən pasiyentlərin hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən lazımi şərait yaradılıb. Şərur Rayon Mərkəzi Xəstəxanasının tibbi heyəti də Bakıdan gələn həkimlərlə birgə əhaliyə tibbi xidmət göstərib.

Yüksəkixtisaslı heyət laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmini yerli həkim və tibb işçilərinə izah edib.

* * *

Bakı şəhərindəki "HB Güvən" klinikasının yüksəkixtisaslı həkim heyəti yanvarın 13-14-də Naxçıvan Muxtar Respublika Xəstəxanasında humanitar aksiya keçirib. Endokrinoloq, uşaq cərrahı, ümumi cərrah, uroloq, plastik, estetik və rekonstruktiv cərrah, LOR, ginekoloq və başqalarının təmsil olunduğu heyət ikigünlük aksiyada 70 nəfəri endokrinologiya xəstəlikləri üzrə tibbi müayinələrdən keçirib, onlarda müşahidə olunan zob düyünlərinin biopsiyası və ultrason müayinələri aparıb, şəkər xəstəlikləri və onların risk amillərini araşdırıb. 70 nəfər LOR, 56 nəfər uroloji, 53 nəfər ginekoloji, 39 nəfər ümumi cərrahi, 20 nəfər plastik cərrahi müayinə və müalicələrə cəlb olunub. Bütövlükdə 308 nəfər müxtəlif tibbi xidmətlərdən yararlanıb, onlara tibbi məsləhət və tövsiyələr verilib.

Aksiyaya Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və orta tibb işçiləri də qoşulub. Onlar aztəminatlı ailələrdən olan 24 uşaqda ümumi, 5 nəfərdə isə digər cərrahi əməliyyatlar aparıblar. 10 kompüter tomoqrafiyası, 10 MRT, 180 laborator, 130 ultrasəslə müalicə, 10 rentgen müayinəsi icra edilib.

## Naxçıvanda növbəti açıq ürək əməliyyatları

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhərində fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir.***

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanası Ürək və damar xəstəlikləri şöbəsinin həkim heyəti 2016-cı il ərzində Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kardiocərrahları ilə birgə 112 nəfərdə açıq ürək əməliyyatı aparıb. Bu da yerli həkimlərin peşə hazırlığının yüksəldilməsində mühüm rol oynayır.

Yaranmış ənənə cari ildə də davam etdirilir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanası Ürək və damar xəstəlikləri şöbəsinin müdiri, tibb elmləri doktoru Rəşad Mahmudov ötən şənbə və bazar günləri Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə ikigünlük ezamiyyətə gəlib. Yerli həkimlər tərəfindən müayinə olunaraq qeydiyyata götürülmüş və əməliyyatı planlaşdırılmış xəstələr üzərində 5 açıq ürək-aortakoronar şuntlama əməliyyatı həyata keçirilib. Xəstələr koronar angioqrafiya, exokardioqrafiya, elektrokardioqrafiya və digər kardioloji müayinələrdən keçirilib, onlarda müşahidə olunan gizli ürək xəstəlikləri və risk amilləri araşdırılıb, xəstələrə tibbi məsləhət və tövsiyələr verilib.

## Culfa Rayon Mərkəzi Xəstəxanasında bir gündə 31 cərrahiyyə əməliyyatı aparılıb

***Muxtar respublikamızın səhiyyə sistemində həyata keçirilən islahatların mühüm bir istiqaməti də əhaliyə göstərilən tibbi xidmətin əhatəsini genişləndirmək, bölgələrdə cərrahiyyə əməliyyatlarını təşkil etmək, müayinə və müalicə işlərini daha da yaxşılaşdırmaqdan ibarətdir. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılmış imkanlar hesabına əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla davam etdirirlər.***

Culfa Rayon Mərkəzi Xəstəxanasında da bir sıra cərrahi əməliyyatların aparılması üçün lazımi şərait yaradılıb. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri ötən şənbə günü bu səhiyyə müəssisəsində 31 cərrahiyyə əməliyyatı aparıb, əhaliyə tibbi xidmət göstəriblər.

Həkim cərrahlardan Abasət Hüseynəliyev, İsa Abdullayev, uroloq Nazim İbrahimov, anestezioloqlar Ənvər Şıxəliyev, Aidə Məmmədova və orta tibb işçiləri ambulator müayinələr zamanı 107 xəstəyə tövsiyələrini veriblər. Cərrahi müdaxiləyə ehtiyacı olan 31 nəfər üzərində uroloji, proktoloji qiqant yırtıq, öd kisəsi əməliyyatları aparılıb. Xəstəxanada ilk dəfə olaraq spinal anesteziya ilə yırtıq əməliyyatı icra edilib. Culfa rayon Yaycı kənd sakini Mirzalı Cəfərov üzərində aparılan bu əməliyyat uğurla başa çatdırılıb, xəstə birgünlük müşahidədən sonra evinə buraxılıb. Ləkətağ kəndindən birinci qrup əlil Səbuhi Qasımov övladlarının başqa yerlərə getmədən, ərazidə yerləşən səhiyyə müəssisəsində pulsuz əməliyyat olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib.

Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri yerli həkimlərə tibbi avadanlıqlardan istifadə qaydalarını da öyrədiblər. Laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmi yerli həkim və tibb işçilərinə izah edilib.

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində könüllü qanvermə aksiyası olub

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində müstəsna rol oynayan qanvermə aksiyalarını davam etdirir.***

Belə tədbirlərdən biri Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası və Naxçıvan Şəhər Polis İdarəsi əməkdaşlarının iştirakı ilə həyata keçirilib. Donorların müayinəsini və qan götürülməsini həyata keçirən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi qan bankının həkimi Məmmədəli Həsənov ölkəmizdə qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən layihələrdən danışıb.

Sonra şəxsi heyət "Sən də bir həyat ver" devizi altında qanvermə aksiyasına qoşulub. Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Bir neçə saat davam edən aksiyada Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasından 12, Naxçıvan Şəhər Polis İdarəsindən isə 15 nəfər könüllü olaraq qan verib. Donorlardan götürülən 13,5 litr qanın qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda mərkəzin qan bankına təhvil verilib. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb.

Qeyd edək ki, tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaq.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2017-ci ilin yanvar ayı üçün əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırıb.*

## Yanvar ayı üçün əmək pensiyaları vaxtından əvvəl ödənilib

Pensiyaların maliyyələşdirilməsi üçün tələb olunan vəsait fondun xəzinə hesabından yerli orqanların xəzinə hesablarına köçürülməklə, yerlərdə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar da nəzərə alınaraq əmək pensiyaçılarının plastik bankomat kartlarına köçürülüb. Eyni zamanda məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan sığortaolunanların da plastik bankomat kart hesablarına və ya poçt ünvanlarına müavinətlərin ödənilməsi təmin edilib.

Məqsədyönlü tədbirlərin nəticəsi kimi muxtar respublikamızda təyin olunmuş pensiyaların plastik bankomat kartları vasitəsi ilə pensiyaçılara vaxtında çatdırılması uğurla həyata keçirilir. Muxtar respublikada ödənişlərin plastik kartlar vasitəsi ilə həyata keçirilməsi üçün Naxçıvan şəhərində 56, Şərur rayonunda 10, Babək rayonunda 6, Ordubad rayonunda 4, Culfa rayonunda 9, Şahbuz rayonunda 5, Kəngərli rayonunda 4, Sədərək rayonunda isə 5 bankomat quraşdırılaraq əhalinin istifadəsinə verilib. Bu da nəticədə, muxtar respublikada yaşayan əmək pensiyaçılarının pensiyalarının ən yaxın məsafədə olan bankomatlar vasitəsilə almasına şərait yaradıb. Müvafiq müqavilələrə əsasən, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu muxtar respublikada fəaliyyət göstərən bank qurumları ilə əməkdaşlıq edir. Muxtar respublika üzrə əmək pensiyaçılarının 100 faizi öz pensiyalarını plastik bankomat kartları vasitəsilə alır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Boks birinciliyi keçirilib

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmələr arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.***



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək bildirib ki, bu yarışın keçirilməsində məqsəd yeniyetmələri zərərli vərdişlərdən kənarlaşdırmaq və onları boks idman növünə cəlb etməkdən ibarətdir. Sonra Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyev yarışın qaydaları haqqında idmançılara məlumat verib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Uşaq-gənclər idman məktəbi və Boks Federasiyasının təşkil etdiyi birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Babək, Ordubad, Kəngərli və Şahbuz rayonlarının idmançıları da güclərini sınayıblar.

Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 17 çəki dərəcəsində 80-ə yaxın dəri əlcək sahibi mübarizə aparıb. Gərgin mübarizə şəraitində keçən döyüşdə Heydərəli Əliyev (32 kiloqram, Naxçıvan), Hüseyn Məmmədzadə (34 kiloqram, Naxçıvan), İlkin Baxşıyev (38 kiloqram, Babək), Hüseyn Hüseynov (40 kiloqram, Naxçıvan), Həsən Hüseynov (41 kiloqram, Naxçıvan), Çingiz Qasımov (42 kiloqram, Kəngərli), Nizami Novruzov (44 kiloqram, Naxçıvan), Ülvi Süleymanov (45 kiloqram, Naxçıvan), Ümid Abbasov (46 kiloqram, Naxçıvan), Ayxan Süleymanov (48 kiloqram, Naxçıvan), Yusif Əliyev (50 kiloqram, Naxçıvan), Kənan İbrahimli (52 kiloqram, Ordubad), Sənan İbrahimli (54 kiloqram, Ordubad), Kamran Allahverdiyev (57 kiloqram, Naxçıvan), Ülvi İbrahimov (66 kiloqram, Ordubad), Abbas Fərəcli (70 kiloqram, Kəngərli) və Teymur Hacızadə (80 kiloqram, Naxçıvan) bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda müvafiq çəki dərəcələrində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə təltif ediliblər.

**Ceyhun MƏMMƏDOV**

## 5 yanvar 2017-ci il tarixdə keçirilmiş hərracda satılmış müəssisə haqqında məlumat

| S/s | Müəssisənin adı | Ünvanı | İstismara verildiyi il | Müəssisənin tam dəyəri | Müəssisənin satış qiyməti |
|---|---|---|---|---|---|
| 1. | "Dəstə Taxıl Emalı Müəssisəsi" MMC | Ordubad rayonu, Dəstə kəndi | 2005 | 104832,00 | 52416,00 |

### Bildiriş

Naxçıvan şəhərindəki "Sarar" İstehsalat Məmulatları Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200001501) fəaliyyətini dayandırdığından ləğv olunur.

* * *

"Nəsimi-1965" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200839501) fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 38